# Orta Dəhliz – təhlükəsizlik və iqtisadi inkişaf layihəsi

**Dövətimizin başçısı İlham Əliyev prezidentlik fəaliyyətinin bütün mərhələlərində regional, həmçinin beynəlxalq layihələrin gerçəkləşməsinə mühüm əhəmiyyət verib. Azərbaycanın bu təşəbbüslərə qoşulması beynəlxalq aləmdə yüksək dəyərləndirilib. Şübhəsiz ki, bu istiqamətdə həyata keçirilən tədbirlərin son nəticədə uğurla yekunlaşmasını isə ölkəmizdə hökm sürən sabitlik və təhlükəsizlik mühiti şərtləndirib. Bu, əlbəttə, Azərbaycan liderinin düşünülmüş uğurlu daxili və xarici siyasət, dünya ölkələri ilə qarşılıqlı maraqlara söykənən əməkdaşlığı sayəsində mümkün olub. Respublikamızın belə bir mövqeyi isə həm Azərbaycanın beynəlxalq aləmdə nüfuzun güclənməsinə, həm də ölkə iqtisadiyyatının dinamik inkişafına əlverişli şərait yaradıb.**



Beləliklə, hər zaman olduğu kimi, bu gün də Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Son dövrlərdə iqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun inkişafında mühüm rolu olan nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, tranzit imkanlarının genişləndirilməsi üçün önəmli tədbirlər həyata keçirilir, modern nəqliyyat infrastrukturu yaradılır, tranzit potensialı artırılır. Bütün bunlar isə Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirir, ölkəmizin dünyada və regionda mövqeyini daha da möhkəmləndirir, dövlətimizin siyasi və strateji əhəmiyyətini artırır.

Orta Dəhliz layihəsi də bu baxımdan böyük əhəmiyyətə malikdir. Bu dəhliz yüklərin Çindən Avropaya və Yaxın Şərqə daşınması üçün ən təhlükəsiz marşrutlardan hesab edilir. Buna görə də tarixi İpək yolunun (Çin, Qazaxıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və daha sonra Avropaya) canlandırılmasına yönəlmiş Orta Dəhliziin əhəmiyyəti artır. Xüsusilə də Rusiya vasitəsilə Asiyadan Avropa Birliyi (Aİ) bazarlarına məhsulların tədarükündə problemlərin yaranması bu dəhlizə olan marağı gücləndirir. Bu cəhətdən dəhlizin fəaliyyətinin gücləndirilməsi Qərb və Şərq arasında təbii körpü rolunu oynayan Azərbaycan üçün də böyük əhəmiyyət daşıyır.

İnfrastruktur və logistika sahələrində birgə layihələrin icrası istiqamətdə həyata keçirilən bütün bu tədbirlərin nəticəsidir ki, son 10 il ərzində nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faiz təşkil edib, yeni infrastruktur qurulub, özəl investisiyalar artıb. Ölkə regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib və əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*

## Ekspert rəyi



**Emin BAĞIROV,**
**Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru**

Prezident İlham Əliyev noyabrın 25-də ADA Universitetində dünyanın beyin mərkəzlərinin, tanınmış siyasi ekspertlərin iştirakı ilə keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" beynəlxalq konfransda Azərbaycanın yerləşdiyi coğrafiyanın iqtisadi şəraiti, Zəngəzur dəhlizinin əhəmiyyəti, Şərq-Qərb dəhlizinin yaradacağı yeni nəqliyyat imkanları kimi məsələlərlə yanaşı, Orta Dəhlizin səmərəlilik, təhlükəsizlik aspektləri barədə də ətraflı məlumat verib. Tədbirdəki çıxışında bölgəmizdə istənilən təşəbbüsün gerçəkləşdirilməsini əsasən sabitlik və iqtisadi təməl prinsipinin şərtləndirdiyini vurğulayan Azərbaycan Prezidenti "Təhlükəsizlik və iqtisadi potensial olmadan bütün region ölkələrinə fayda verəcək Orta Dəhlizin tam istismara verilməsi məqsədinə nail olmaq mümkün olmayacaq", – deyib. Dövlətimizin başçısı daha sonra bu gün dünyada sabitlik adası kimi tanınan Azərbaycanın iqtisadi inkişafının genişmiqyaslı layihələrin icrasına imkan verdiyini də diqqətə çatdırıb.

Yeri gəlmişkən, Orta Dəhliz layihəsi Çinin "Bir kəmər, bir yol" təşəbbüsü ilə əhəmiyyətli dərəcədə üst-üstə düşməklə bərabər, regional əlaqələrin gücləndirilməsi, marşrut boyu sosial-iqtisadi inkişafın təşviqi və qlobal təchizat zəncirlərinin təmin edilməsi üçün mühüm önəm daşıyır. Eyni zamanda, adıçəkilən dəhliz xüsusilə bu ildən etibarən dünyada yaranan yeni vəziyyətin şərtləri daxilində, Çin–Mərkəzi Asiya–Qafqaz–Avropa nəqliyyat dəhlizinin sabit və fasiləsiz fəaliyyətinin təminatçısına çevrilir. Bu ilin yanvar–avqust aylarında Orta Dəhliz üzrə Çin–Avropa marşrutu ilə hərəkət edən qatarların sayı keçən illə müqayisədə 34 faiz artması, Çinin bir neçə şəhərindən yeni marşrutlar açılması da bunun bariz ifadəsidir.

İlkin hesablamalara əsasən, cari il üçün dəhlizlə hərəkət edəcək qatarların sayının yeni rekord həddə çatacağı gözlənilir. Bununla da transsərhəd nəqliyyat əməkdaşlığının Çin–Azərbaycan münasibətlərində yeni parlaq səhifə açılacağı proqnozlaşdırılır.

Respublikamız Mərkəzi Asiya ilə Avropanın kəsişməsində yerləşdiyi üçün buradan keçən həmin nəqliyyat və kommunikasiya dəhlizləri bir çox dövlətlər üçün yüklərin tranziti üçün geniş imkanlar yaradır. Bu sırada Orta Dəhliz adlandırılan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu təkcə Azərbaycana deyil, bütün dünyaya böyük perspektivlər açır, yüklərin daşınması üçün təhlükəsiz marşrutlardan sayılır. Böyük İpək yolunun yenidən canlandırılmasına yönələn bu dəhlizin əhəmiyyəti getdikcə artır. Xüsusilə də hazırda Rusiya vasitəsilə Asiyadan Avropa Birliyi (Aİ) bazarlarına məhsulların tədarükündə müəyyən problemlərin yaşanması adıçəkilən nəqliyyat marşrutuna marağı gücləndirir. Bununla da dəhlizin fəaliyyətinin gücləndirilməsi Qərb və Şərq arasında mühüm körpü rolunu oynayan respublikamız üçün böyük əhəmiyyət daşıyır. Bir sözlə, hazırda Orta Dəhliz Avropa ilə Asiya arasında ən təhlükəsiz və qısa yol hesab olunur. Bu nəqliyyat marşrutu həm də okeana çıxışı olmayan Azərbaycan, Türkmənistan, Özbəkistan və Əfqanıstanın qlobal bazarlarla əlaqə qurması baxımından mühüm önəm daşıyır.

Yeri gəlmişkən, Orta Dəhliz Çindən Türkiyəyə və eləcə də Avropa ölkələrinə və əks istiqamətdə yük daşımalarının artırılmasına xidmət edir. Hesablamalara görə, bu marşrutla hərəkət edən blok qatarı Çindən Avropaya yükləri orta hesabla 20-25 günə çatdırır. Bu isə Orta Dəhlizin – Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əsas üstünlüklərindən biridir.

ADA Universitetində noyabrın 25-də "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən konfransda da bu beynəlxalq nəqliyyat infrastrukturu barədə ətraflı danışılıb. Prezident İlham Əliyev tədbirdəki çıxışında Orta Dəhliz kimi irimiqyaslı layihənin icrasının təhlükəsizlik, iqtisadi bacarıq və geosiyasi amillər sayəsində gerçəkləşdiyini, bu cür önəmli təşəbbüsə qoşulan hər bir ölkənin də bu missiyaya sadiq qaldığını diqqətə çatdırıb.

Sonda bir statistik məlumatı da qeyd etmək istərdim. Belə ki, yeni geosiyasi vəziyyətdə ölkəmizin Çin–Avropa və əks istiqamətdə nəqliyyat bağlantısının gücləndirilməsində rolunun artması, bu marşrut üzrə yüklərin daşınması prosesində davamlılığın təmin olunması şəraitində cari ilin 10 ayı ərzində Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə konteynerlərlə yükdaşımalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 45 fazi artıb.